# Nicatın növbəti uğuru

## Azərbaycanlı gənc beynəlxalq olimpiadanın qalibi olub



Rusiyanın Sankt-Peterburq şəhərində Beynəlxalq Tarix Olimpiadası keçirilib. Dünyanın 30-a yaxın ölkəsindən 900-dən çox gəncin qatıldığı olimpiadanın final mərhələsində beş ölkədən - Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Anqola və Çindən olan gənclər birincilik uğrunda yarışıblar. Qızğın mübarizədən Azərbaycan təmsilçiləri qalibiyyətlə ayrılıblar. Ölkəmizin adını bu mötəbər yarışda ən yüksək pilləyə ucaldan qaliblərdən biri də Azərbaycan Dillər Universitetinin II kurs tələbəsi Nicat Əliyev olub.

Sözügedən beynəlxalq yarışda qazandığı uğurlardan danışan Nicat Əliyev qürurla söylədi ki, Qarabağ Zəfərindən sonra Azərbaycan gəncliyi istənilən platformadakı mübarizəyə qalib ölkənin təmsilçiləri kimi qatılır və bu, onlara əlavə stimul, ruh yüksəkliyi, qələbə əzmi verir.

### Qalibiyyətə aparan yol

Azərbaycan gəncliyi cəmiyyətimizin ən aparıcı qüvvəsidir. Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən gənclər siyasəti sayəsində fəal vətənpərvər gənclər yetişib.




2004-cü ildə Bakı şəhərində ziyalı ailəsində dünyaya göz açan Nicat Pərviz oğlu Əliyev də fəal gənclərimizin sırasında ölkəmizin inkişafına töhfə vermək, maraqları naminə səylə çalışır. 2021-ci ildə Azərbaycan Dillər Universitetinin Alman dili müəllimliyi ixtisasına qəbul olunan Nicat Əliyev bu təhsil ocağında sosial sahədə də aktiv fəaliyyətə başlayıb. Əvvəlcə universitetin Tələbə Gənclər Təşkilatının sədr müavini olub, 2023-cü ildən isə sədridir. Bununla yanaşı, "ASAN xidmət"də və digər dövlət qurumlarında könüllü kimi fəaliyyət göstərib.

Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) Respublika Forumunda Nicat Əliyev "İlin Tələbə Gənclər Təşkilatı Sədri" nominasiyasına layiq görülüb.

Nicat Əliyev üçün ümumilikdə 2024-cü il uğurlarla bol olub. Bu günlərdə Beynəlxalq Tarix Olimpiadasında qalib olan, eyni zamanda dekabrın 2-də Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının idarə heyətinin üzvü seçilən gənc fəalla görüşüb xoş təəssüratlarını bölüşdük.

Nicat Əliyev söylədi ki, Sankt-Peterburq şəhərində keçirilən Beynəlxalq Tarix Olimpiadasında Azərbaycan Dillər Universiteti 4-cü kurs tələbəsi Nigar Hüseynova ilə birlikdə komanda şəklində iştirak ediblər: "Olimpiadaya keçirilən onlayn seçim mərhələlərindən sonra mənə və komanda yoldaşıma qəbul olunduğumuza dair mesaj gəldi və bizi Sankt-Peterburqda baş tutacaq yarımfinal və final mərhələsinə dəvət etdilər. Yarımfinalı da adlayıb finala vəsiqə qazandıq. Sankt-Peterburqda olduğumuz müddətdə Azərbaycan nümayəndə heyəti adından Rusiyanın NTV kanalına müsahibə verdim və olimpiadanın gedişatı haqqında təəssüratlarımı da bölüşdüm.

Olimpiadada suallar hər mərhələdə getdikcə çətinləşdirilirdi, amma finalda daha qəliz idi. Əsasən I və II Dünya müharibələrini əhatə edən suallar detallı bilgilər tələb edirdi. Bu mərhələdə qazaxıstanlı, qırğızıstanlı, anqolalı və çinli gənclərlə aramızda gərgin rəqabət getdi. Amma Azərbaycan komandası olaraq bu qızğın mübarizədən qalib ayrılmağı bacardıq. Çünki hədəfimiz qalibiyyət idi deyə ona gedən yolda qarşımıza çıxan bütün çətinlikləri səylə aşdıq".

Olimpiadada birinci yerə çıxdığı üçün böyük sevinc hissi keçirdiyini dilə gətirən Nicat Əliyev onu da dedi ki, qalib ölkənin qalib gənci olduğu üçün fəxr duyur.

### Tarixi ilk

Dekabrın 2-də Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) VII Hesabat-Seçki Konfransı keçirilib. Konfransda ittifaqın idarə heyəti və sədri seçilib.

Özü də idarə heyətinə üzv seçilən Nicat Əliyev məlumat verdi ki, ATGTİ-nin baş katibi Rəşad Zeynalov ittifaqın növbəti müddət üçün sədri vəzifəsinə layiq görülüb: "ATGTİ-də artıq yeni komanda formalaşıb. Qarşıda gənclərin inkişafı üçün yeni hədəflər müəyyən edilib və bu ümumi məqsədlərə çatmaq üçün səylərimizi birləşdirmişik".

ATGTİ-nin ölkəmizdə fəaliyyət göstərən 101 ali və orta ixtisas təhsili müəssisəsindəki tələbə gənclər təşkilatlarını bir çətir altında birləşdirdiyini deyən Nicat Əliyev söylədi ki, Qafqazın ən böyük Tələbə Gənclər Təşkilatları İttifaqı statusunu daşıyan bu qurumda cari ildən etibarən Qarabağ Universitetinin təmsil olunması da bir başqa qürurverici məqamdır: "Bu il sentyabrın 20-də Dövlət Suverenliyi Günündə Xankəndidə Qarabağ Universitetinin Prezident İlham Əliyev tərəfindən açılışı həyata keçirildi. Bu tarixi hadisə həm də Qarabağ və Şərqi Zəngəzura elmimizin də qayıdışının müjdəsi oldu. Mindən çox tələbə böyük qürur hissi ilə bu ali təhsil müəssisəsində oxumağa üz tutdu. Qarabağ Universitetinin Tələbə Gənclər Təşkilatının fəaliyyətə başlaması tarixi bir ilkdir. Artıq bu təşkilatın sədri də Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının idarə heyətinə üzv seçilib. Şanslı gənc nəsilik ki, ölkəmizin həyatında baş verən bu qürurverici hadisələrə şahidlik edirik".

### Yurda qayıdış hüququ

Bu günlərdə Qərbi Azərbaycan İcmasının "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda ikinci beynəlxalq konfrans keçirildi. Qərbi azərbaycanlıların başlarına gələnlər və onların qayıdış hüququnun diqqət mərkəzində olacağı konfransın təşkilat komitəsində yer aldığını da qeyd edən Nicat Əliyev məlumat verdi ki, tədbirə 50-dən çox ölkədən 200-dən çox xarici iştirakçı qatılıb: "Hesab edirəm ki, bu beynəlxalq konfrans qərbi azərbaycanlıların yurdlarına qayıdış hüquqlarının bərpası istiqamətində mühüm əhəmiyyət kəsb edəcək".

Göründüyü kimi, elm pilləsində uğurla irəliləyən 20 yaşlı gənc ictimai, sosial fəaliyyətində də qarşısına qoyduğu hədəflərə çatmaq üçün böyük əzm nümayiş etdirir və yeni üfüqlərə doğru əminliklə addımlayır.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***